

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 91 (23.978)

18 may 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul edib. Görüşdə Azərbaycanla İsrail arasında iqtisadi əlaqələrə toxunulub, kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivlərindən danışılıb. İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışıb. Erməni işğalından azad edilmiş ərazilərdə görülən işlərdən bəhs edən dövlətimizin başçısı bu torpaqlarda dərhal kənd təsərrüfatı layihələrinin həyata keçirilməsinə başlanıldığını bildirib. İşğal dövründə ermənilərin ərazilərimizdə ekoloji soyqırımı törətdiyini vurğulayan Prezident İlham Əliyev xüsusilə bunun nəticəsində bu yerlərin su mənbələrindən də məhrum olunduğunu, buna görə hazırda həmin ərazilərdə su mənbələrinin bərpası və irriqasiya sistemi ilə bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını qeyd edib.

Oded Forer kənd təsərrüfatı sahəsində uğurlu əməkdaşlıqdan bəhs edib, bildirib ki, Azərbaycanda əldə edilən inkişafın böyük imkanlar yaratdığı nəzərə alınaraq Qarabağ regionunda da əməkdaşlıq üçün yaxşı potensial var.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti may ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2022-ci il 4 may tarixli Qərarı ilə "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən ölkədaxili uçuşlar zamanı sərnişinlərdən koronavirusa dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur.

Nazirlər Kabinetinin 2022-ci il 5 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda dəyişiklik edilərək bundan sonra dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması üçün lisenziya verilməsi zamanı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin rəyi tələb olunmayacaqdır.

Bundan başqa, Nazirlər Kabinetinin 2022-ci il 6 may tarixli Qərarına əsasən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının adı Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı ilə əvəz edilmişdir. Eyni zamanda Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2022-ci il 10 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə və onların ailə üzvlərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" və "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşının maddi və sosial təminatı ilə bağlı qaydaların təsdiq edilməsi haqqında" qərarlarında dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında və daxili işlər orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan orqanların əməkdaşlarına və onların ailə üzvlərinə xidmət keçdiyi dövr ərzində kirayəyə götürülmüş yaşayış sahəsindən istifadə haqqı üçün yaşayış məntəqəsindən asılı olaraq pul kompensasiyasının verilməsi zamanı işçinin ailə üzvlərinin şəxsiyyət vəsiqəsinin, 15 yaşına çatmamış uşaqların doğum haqqında şəhadətnamələrinin və ailə üzvlərinə aid olması barədə digər sənədlərin notariat qaydasında təsdiq edilmiş surəti tələb olunur. Məlumat üçün qeyd edək ki, bu yaş həddi bundan əvvəl 16 yaş həddi olaraq müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 2022-ci il 12 may tarixli Qərarı ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının təmin edilməsi ilə əlaqədar Nümunəvi Formalar"ın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin Qərarında dəyişiklik edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Bu il muxtar respublikada 70 hektar sahədə tütün əkilib

İqtisadi gəlirliliyinə görə seçilən tütünçülük son illərdə muxtar respublikada sürətlə inkişaf etdirilən sahələrdəndir. 2017-ci ildən başlayaraq "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının Kəngərli rayonundakı Tütün Yetişdirmə Təsərrüfatında yetişdirilən tütün şitilləri, əsasən, Kəngərli, Şərur və Babək rayonlarında əkilir. İldən-ilə əkin sahələrinin artırıldığı muxtar respublikada ötən il 50 hektar sahədən 94 ton quru tütün istehsal olunub.

Tütün əkini cari ildə də uğurla aparılıb. Belə ki, əkin işlərinə aprel ayının ikinci ongünlüyündə başlanılıb. Torpaq mülkiyyətçiləri ilə bağlanmış müqavilələrə görə şitillər vaxtında sahələrə daşınıb və əkin prosesi mütəşəkkilliklə həyata keçirilərək yekunlaşdırılıb. Tütün Yetişdirmə Təsərrüfatından aldığımız məlumata görə, bu il Şərur rayonunda 7, Babək rayonunda 9, Kəngərli rayonunda isə 54 hektar olmaqla, ümumilikdə, 70 hektar sahədə tütün əkini aparılıb.

**Xəbərlər şöbəsi**

## Azərbaycan-Avropa İttifaqı biznes forumunda muxtar respublikanın nümayəndə heyəti də iştirak edib

Mayın 17-də Bakıda Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası, Azərbaycan-İtaliya Ticarət Palatası, İqtisadiyyat Nazirliyi yanında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə "Azərbaycan-Avropa İttifaqı" biznes forumu keçirilib. Tədbirdə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri səfir Peter Miçalko və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov iştirak ediblər. Biznes forumda Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasında ticarət və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Tədbirdə Avropa İttifaqı ölkələrinin və Azərbaycan şirkətlərinin nümayəndələri ölkəmizdə və Avropa İttifaqı ölkələrində bizneslə məşğul olmaq imkanları ilə tanış olub.






Ticarət əlaqələrinin inkişafında, iş adamları arasında işgüzar əlaqələrin genişlənməsində, həmçinin yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayan foruma Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də qatılıb. Nümayəndə heyətinin tərkibinə muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərindən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının rəhbəri Vüqar Abbasov , "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Teymur Rzayev, həmçinin Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti, "Müasir Məkan" ət və ət məhsulları müəssisəsi və "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri təmsil olunublar.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev və Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri səfir Peter Miçalko arasında ikitərəfli görüş keçirilib. Görüşdə iqtisadiyyat naziri Tapdıq Əliyev muxtar respublikamızın sosial-iqtisadi inkişafı, biznes, investisiya mühiti barədə ətraflı məlumat verib və əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Növbəti aktivlər təqdim olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aprel ayı üzrə 30 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib. Özünüməşğulluq proqramının bu mərhələsində 14 nəfərin hər birinə 2 baş iribuynuzlu, 4 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 5 nəfərə miniyerşumlayan aqreqat, 5 nəfərin hər birinə 10 yeşik arı ailəsi və arıçı ləvazimatları, 1 nəfərə unlu və qənnadı məmulatlarının hazırlanması üçün avadanlıq və ləvazimatlar, 1 nəfərə isə dülgər avadanlıqları və ləvazimatları verilib. Özünüməşğulluğu təmin edilmiş ailələrdən 3 nəfərini şəhid ailəsi üzvləri, 15 nəfərini sağlamlıq imkanları məhdud olan, 4 nəfərini müharibə veteranı, 1 nəfərini cəzaçəkmədən azad olunan, 2 nəfərini nikahı pozulan, 3 nəfərini isə ailə başçısını itirən şəxs təşkil edib.



Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Dövlət proqramlarının icrası çərçivəsində, özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olduğunu, bu da həmin ailələrin sosial rifah halının yaxşılaşmasına müsbət təsir etdiyini bildirən Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev və Kəngərli Rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıblar.

Tədbirdə yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Qeyd edək ki, bu mərhələdə təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə Kəngərli rayonunun Qabıllı kənd sakini İmmi Hüseynova həvəsləndirmə tədbirlərinə cəlb edilib və bu məqsədlə ona arpa-buğdaqıran aqreqat verilib.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Görkəmli dövlət xadimi Heydər Əliyev muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonuna böyük qiymət verərək demişdir:* ***"Şərur rayonunun imkanları böyükdür... Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatını daha da inkişaf etdirəsiniz".*** *Bu gün Şərura yolu düşən hər bir naxçıvanlı ulu öndərin tövsiyələrinin yüksək səviyyədə həyata keçirilməsinin şahidi olur. Yaradılmış şəraitdən səmərəli istifadə edən şərurlular da onlara göstərilən qayğı müqabilində əkir, becərir, həm özünü yaşadır, həm də daxili bazara töhfəsini verir... Belə inkişaf rayonda hər sahədə özünü göstərir. Məsələn, genişhəcmli quruculuq tədbirləri rayonun ayrılmaz həyat ritminə çevrilib. Bölgənin elə bir yaşayış məntəqəsi yoxdur ki, quruculuq prosesi ağuşunda görkəmini dəyişməsin, orada sosial təyinatlı tədbirlər həyata keçirilməsin. Bu günlərdə yolumuzu yenidən o bölgədən saldıq.*

*İnkişaf edən bölgələrimiz*

# Gözəlliyi göz oxşayır Şərurun

## *İlin ötən dövrü ərzində bu gözəlliyə yeni çalarlar gətirilib*



2022-ci ilin ötən dövründə burada görülən işlərlə tanış olduq. Öyrəndik ki, rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2022-ci ilin birinci rübündə bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyon 349,7 min manat vəsait ödənilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsaitin dəyəri 2,3 faiz artaraq 7 milyon 118,3 min manat təşkil edib. Bu müddətdə rayonda yeni təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa olunub, yollar çəkilib, körpülər salınıb, su, elektrik təsərrüfatı yaxşılaşdırılıb. Bütün idarə, müəssisə və təşkilatlarda ahəngdar iş rejimi insanların yurd yerinə bağlılığını, işə məsuliyyət hissini, qurub-yaratmaq əzmini xeyli artırıb.

Faktlara müraciət edək. 2021-ci ildə və 2022-ci ilin ötən dövründə Şərur şəhərində 40 mənzilli yaşayış binasının, Gigiyena və Epidemiologiya Şöbəsinin, eləcə də xidmət sahələrinin istifadəyə verilməsi, Saat Meydanının, Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Şərur Rayon Şöbəsinin inzibati binasının, 7 yaşayış binasının, yeraltı piyada







keçidinin, "Araz" Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsinin, Sərxanlı kəndində içməli su xəttinin, Ərəbyengicə kəndində Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış komplekslərinin, 8 meqavatlıq Şərur Günəş Elektrik Stansiyasının, Muğanlı və Maxta yarımstansiyalarının tikintisi, yenidən qurulması və əsaslı təmir işləri başa çatdırılıb. Həmçinin ötən il Şəhriyar, Çərçiboğan və Dərvişlər kəndlərində kompleks quruculuq işləri aparılıb. Hazırda rayonun Vərməziyar, Alışar, Həmzəli və Axura kəndlərində inşaat işləri davam etdirilir. Naxçıvan-Sədərək magistralından Şərur şəhərinədək, həmçinin şəhərin Heydər Əliyev prospektini və 6 küçəsini əhatə edən 11,2 kilometrlik avtomobil yolunun, Ərəbyengicə kəndində Sərhəd Zastavasına gedən yolun, eyni zamanda Şəhriyar, Çərçiboğan və Dərvişlər kəndlərində kənddaxili yolların yenidən qurulması başa çatdırılıb.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə şərurlular bu rayonun inkişafı, bölgə sakinlərinin gün-güzəranlarının yaxşılaşdırılması üçün böyük işlər görmüş ulu öndərin siyasətinə ehtiramın bir daha şahidi oldular. Belə ki, may ayının 10-da rayon mərkəzində Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası və Şərur Rayon Mədəniyyət Sarayı istifadəyə verildi. Nümayəndəlik binasının açılışında Ali Məclisin Sədri demişdir: ***"Ulu öndərin siyasi xətti Şəruru da inkişafa qovuşdurub. Şərur rayonu yarandığı gündən ötən dövrdə heç vaxt bu qədər inkişaf etməmiş, rayonda bu qədər geniş quruculuq işləri aparılmamışdır. Təkcə quruculuq işləri deyil, Şərur rayonu, eyni zamanda kənd təsərrüfatı rayonudur. Aqrar sahə inkişaf etdirilir, bol məhsul istehsal olunur. Ölkəmizin ərzaq təhlükəsizliyində Şərur rayonunun da payı vardır. Bundan başqa, rayonun sənayeləşməsi üçün tədbirlər görülür. Sənaye məhəlləsi yaradılır, kiçik sahibkarlıq müəssisələrinin qurulması üçün dövlət tərəfindən kreditlər verilir, ailə təsərrüfatları inkişaf etdirilir. Bir sözlə, bu gün rayonun inkişafı üçün lazım olan bütün tədbirlər həyata keçirilir".***

O da xüsusi vurğulanmalıdır ki, rayonda çoxşaxəli iqtisadiyyatın formalaşdırılması, sosial sahənin inkişafı üzrə həyata keçirilən tədbirlər muxtar respublikada "Sənaye ili" elan edilmiş 2022-ci ilin I rübündə də davam etdirilib.

Sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni sənaye müəssisələrinin qurulması bu sahədə məhsul istehsalının artımını təmin edən əsas amillərdən olub. Belə ki, bəhs olunan dövrdə rayonda 21 milyon 30,6 min manat həcmində sənaye məhsulu istehsal edilib. Bu, 2021-ci ilin müvafiq dövründəki göstəricidən 1,4 faiz çoxdur.

Bunu da qeyd edək ki, yanvar-mart ayları ərzində rayonda dövlət dəstəyi ilə yeni istehsal sahələrinin yaradılması da diqqətdə saxlanılıb, iqtisadi fəaliyyətin müxtəlif sahələrində 6 layihə üzrə istehsal obyektləri fəaliyyətə başlayıb, 11 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilib.

Ölkəmizdə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilib. Bu istiqamətdə görülən işlərin davamı olaraq Prezident cənab İlham Əliyevin Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında 2019-cu il 13 sentyabr tarixdə imzaladığı Fərmanın icrası istiqamətində də işlər müntəzəm şəkildə həyata keçirilir. Cari ilin ilk üç ayı ərzində bu böyük obyektdə işlər sürətlə davam etdirilib. Sənaye məhəlləsinin ərazisində 24 istehsal sexi, 6 inzibati və 5 texniki otaqdan ibarət bina və 3 istehsal korpusu inşa olunmuşdur. İlkin olaraq 2 şirniyyat, 1 balın qablaşdırılması və 1 trikotaj malları istehsalı sahələri üzrə mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən müraciət daxil olmuşdur. Gələcəkdə bu sahələrin reallaşdırılması və fəaliyyətə başlaması istiqamətində, eyni zamanda inzibati binanın istehsal bloklarında corab və digər istehsal sahələri kimi müvafiq sahibkarlıq fəaliyyətinin təmin edilməsi istiqamətində işlər aparılır. Birinci istehsal korpusunda ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel olmaqla, 2 mebel müəssisəsi fəaliyyət göstərir. Eyni zamanda rayonun mövcud imkanlarına uyğun olaraq yerli resurslardan istifadə olunmaqla müvafiq sahələr üzrə sahibkarların cəlb edilməsi üzrə araşdırmalar aparılır. Hazırda daxil olmuş müraciətə əsasən meyvə-tərəvəz məhsullarının emalı sahəsinin qurulması istiqamətində sahibkarla birgə iş aparılır. 2 hissədən ibarət ikinci korpusda məktəbli ləvazimatları, kağız kisə və karton tara müəssisələri fəaliyyət göstərəcəkdir. Üçüncü korpusda isə bitki yağı istehsalı zavodunun qurulması istiqamətində işlər davam etdirilir. Bu, həmin məhsulların idxalının azaldılmasında mühüm rol oynamaqla, ixracın və rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

Rayonda aqrar sahədə qazanılan uğurlar da ildən-ilə artmaqdadır. Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə ardıcıl tədbirlərin həyata keçirilməsi cari ilin ilk rübündə də davam etdirilib.

Rayonda 1 aprel 2022-ci il tarixə 917 hektar sahədə yazlıq bitkilər əkilib. Əkin sahəsinin 80 hektarını dənli və dənli-paxlalılar (qarğıdalısız), 108 hektarını dən üçün qarğıdalı, 264 hektarını kartof, 162 hektarını tərəvəz, 7 hektarını ərzaq üçün bostan bitkiləri, 296 hektarını cari ilin çoxillik otları təşkil edir.

Bu dövrdə məhsul istehsalçılarının müasir kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı da diqqət mərkəzində saxlanılıb, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 205 min 356 manat dəyərində müxtəlif təyinatlı 12 kənd təsərrüfatı texnikası lizinq yolu ilə güzəştli şərtlərlə rayonda fəaliyyət göstərən sahibkarlara satılıb.

Tarixən Şərur daxili bazarı keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təmin edən bölgələrimizdən biri kimi tanınıb. Belə məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsi, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması rayonda bu sahələrə marağı xeyli artırıb.

Cari ilin ilk rübündə 1 istixana təsərrüfatının yaradılması, 3 istixana təsərrüfatının genişləndirilməsinin başa çatdırılması, 1 soyuducu anbarın yaradılmasının davam etdirilməsi şərurlu torpaq adamlarına yeni qayğının ifadəsi kimi diqqəti çəkir.

Bu dövrdə kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafına da ciddi önəm verilib, 5 heyvandarlıq təsərrüfatının yaradılması və 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb, 4 heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilib.

Kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi, istehsal olunan məhsulların ixrac potensialının artırılması və kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq olunub.

Bu dövrdə rayonda 8 milyon 538,5 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricini 1,7 faiz üstələyir.

İqtisadi cəhətdən xeyli sərfəli olan arıçılığın inkişafı üçün rayonda geniş imkanların mövcudluğu bu sahəyə marağı getdikcə artırır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" isə bu sahə ilə məşğul olanlar üçün daha bir stimuldur.

Qısaca olaraq onu da qeyd edək ki, rayonda heç bir sahəyə qayğı unudulmayıb, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yeni iş yerlərinin yaradılması bəhrələrini verib.

Görülən işlərə Şərur sakinlərinin münasibəti necədir? Bu suala cavab tapmaq üçün onlardan bir neçəsi ilə həmsöhbət olduq. Rayonun *Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru Yeganə Məmmədova* deyir ki, yurdumuzun torpağı münbit, suyu bol, havası saf, adamları sadə, mehriban və zəhmətkeşdirlər. Bu gün Şərurda elə bir insan tapmaq mümkün deyil ki, ürəyində ulu öndər Heydər Əliyevə sonsuz məhəbbət yaşatmasın. Çünki bu gün qazandığımız bütün uğurlara görə ulu öndərə borcluyuq. Torpaq islahatlarına ilk dəfə olaraq Naxçıvanda başlanılması, bu böyük iqtisadi layihənin uğurla başa çatdırılması hər bir zəhmət adamını öz torpağının həqiqi sahibinə çevirdi. Ümummilli liderimizin müəyyənləşdirdiyi iqtisadi siyasətin bu gün muxtar respublikamızda dönmədən həyata keçirilməsi, ulu öndərin ideyalarına sədaqət Şərur rayonunu da gözəlliklər diyarına çevirib, insanların yaşayış səviyyəsi xeyli yüksəlib. Cari ilə də rayon uğurla başlayıb. İlin ötən dövrünün nəticələri də belə deməyə əsas verir. 2022-ci ili yüksək nəticələrlə başa vurmaq üçün şərurlular bütün imkanlarını səfərbər ediblər. Məqsəd isə bölgənin, muxtar respublikanın, nəticə etibarilə, ölkənin iqtisadiyyatının daha da gücləndirilməsinə töhfə verməkdir.

*Rayon ziyalısı, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Elman Telmanoğlu*nun ürək sözləri:

– Həyatda uğur qazanmaq üçün rastlaşdığın çətinlikləri dəf etməyi bacarmalısan. Şərurlular da çətinliyə dözməyi bacaran insanlardır. Buna baxmayaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində onların da bəzilərində ruh düşkünlüyü sezilirdi. Belələrini qınamaq da olmurdu. Niyə? Məktəb binaları yararsız vəziyyətdə idi, təhsil ocaqları uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi. Səhiyyə xidməti unudulmuşdu, müasir informasiya texnologiyalarından istifadə barədə söhbət etməyə dəyməzdi. Elektrik enerjisi, yanacağın olmaması isə ən böyük dərdlərimizdən idi. Xidmət sahələrinin fəaliyyətini yox səviyyəsində saymaq olardı. Bu gün muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şərur rayonunun da problemləri öz həllini tapıb. Bütün bunlar dövlətimizin öz vətəndaşlarına böyük qayğısının ifadəsidir. Belə qayğı isə insanları yaşadıqları torpağa daha sıx tellərlə bağlayır, onların qurub-yaratmaq əzmini daha da gücləndirir.

*Qazanılmış uğurlara sevinən şərurluların söhbətlərindən bir əsas məqamı oxuculara çatdırmaq yerinə düşər: görülən işlərə minnətdarlıq hissləri. Böyük səmimiyyətlə ifadə olunan belə hisslər təbiidir. Çünki insanlar uzun illər həsrətində olduğu gün-güzərana qovuşduğunu görür və dərindən dərk edirlər ki, bütün bunlar onlar üçündür.*

**Muxtar MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***



*YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının 1977-ci ildə qəbul etdiyi qərara əsasən 18 may bütün dünyada "Beynəlxalq Muzeylər Günü" kimi qeyd edilir. Bu günün qeyd olunmasının əsas məqsədi ictimaiyyətin diqqətini mədəni irsə cəlb etməklə xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək göstərməkdən ibarətdir.*

*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Muzeylər mədəni irsimizin qorunması və təbliğində mühüm rol oynayır

Muzeylər milli özünəməxsusluğu nümayiş etdirən, milli-mənəvi dəyərləri toplayan, keçmişlə bağlı həqiqətləri təcəssüm etdirən, qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olmaqla respublikamızın bütün bölgələrini əhatə edir.

Ölkəmizdə muzey işinin, muzeyşünaslığın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan ulu öndər respublikada muzey şəbəkəsinin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlamışdır. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, ev-muzeyləri, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmışdır. Həmçinin həmin illər ölkəmizdə bu sahəni inkişaf etdirmək üçün Azərbaycan Muzeylər İdarəsi, Muzey İşi üzrə Respublika Elmi-Metodik Mərkəzi, Muzeylərin Bədii Tərtibatı Müəssisəsi, Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi kimi qurumlar yaradılaraq fəaliyyətə başlamışdır. Ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda muzey şəbəkəsinin inkişafı daha intensiv xarakter almış və 100-dən çox muzey yaradılmışdır. Ölkəmizdə tarix-diyarşünaslıq muzeyləri, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev-muzeyləri, xatirə muzeyləri təşkil edilmişdir. Əgər 1969-cu ilədək Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, ümummilli liderin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılmışdır.

***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır"***, – deyən ümummilli lider Heydər Əliyevin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, bu sahədə qanunvericilik bazası yaradılmışdır. Muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilmişdir. 2000-ci ildə qəbul edilən "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir.

***"Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, mühüm işlər həyata keçirilir. Ölkəmizdə 200-dən çox muzeyin fəaliyyət göstərməsi bunun bariz ifadəsidir. Dövlət başçısının "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart və 2009-cu il 22 may tarixli sərəncamları ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" bu sahənin hüquqi



bazasının formalaşmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişlənməsinə imkan yaratmışdır. Eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının gerçəkləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq milli-mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur.

Təəssüf ki, neçə-neçə tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən qarət olunmuş və dağıdılmışdır. Erməni faşistləri 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv etmişlər. Canlı muzey olan və bu gün düşmən işğalından azad edilən Şuşada 8 muzey fəaliyyət göstərmişdir. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, görkəmli musiqiçi Qurban Pirimovun Ağdam rayonundakı xatirə, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilmişdir. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi ermənilər tərəfindən tamamilə yerləyeksan olunmuşdur. Tarixi Zəfərdən sonra həmin torpaqlarda muzeylərimizin fəaliyyəti bərpa edilir. Həyata keçirilən tədbirlərin sonra milli mədəniyyətimizi, qədim tariximizi nümayiş etdirən mədəniyyət müəssisələri öz tarixi görkəminə qovuşacaq və ölkəmizin muzey şəbəkəsinə qoşulacaqdır.

Naxçıvan Muxtar Respublikasında da muzey işinin özünəməxsus inkişaf tarixi vardır. Təsadüfi deyil ki, ölkəmizdə yaradılan ilk muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur. 1896-cı ildə böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və Azərbaycanda ilk dəfə olaraq bu kənd məktəbində Naxçıvanın tarixinə dair maddi mədəniyyət nümunələrinin toplandığı muzey yaratmışdır. 1924-cü ildə Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi təşkil edilmiş, 1926-cı ildə isə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət muzeyi kimi fəaliyyət göstərməyə başlamışdır. 1925-ci ildə Azərbaycan üzrə yaradılan cəmiyyətin bir şöbəsi kimi fəaliyyət göstərməyə başlayan "Naxçıvanı Tədqiq və Təttəbbö" Cəmiyyətinin də muzeyin zənginləşməsində müəyyən xidmətləri olmuşdur.

Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq yaradılır, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapır. Təbii ki, ötən əsrin 80-90-cı illərində Naxçıvan Muxtar Respublikasında baş verən dağıdıcı proseslər, sosial-iqtisadi böhran, cəmiyyətdəki qeyri-sabitlik muzeylərin də tamaşaçılarını itirməsinə səbəb olmuş və bu mədəniyyət ocaqlarını baxımsız hala salmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqəti və qayğısı ilə muzeylərimiz müasir tələblər səviyyəsində yenidən qurulmuş, bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir. 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda muxtar respublikada 1 rəsm qalereyası və 30 müxtəlif profilli muzey fəaliyyət göstərir. Hazırda bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox eksponat toplanmışdır. Muxtar respublikanın muzeylərinə ötən il 2 min 863, bu ilin 4 ayında isə 617 yeni eksponat daxil olmuşdur.

2012-ci ildə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, 2013-cü ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzey üçün bina istifadəyə verilmişdir. Tarix-Bədii Qoruq dəniz səviyyəsindən 3700 metr yüksəklikdə yerləşməklə açıq səma altında nadir muzeylərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində daha bir muzey yaradılmışdır. 2014-cü ildə Şahbuz rayonundakı Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmişdir. 2015-ci ildə Naxçıvan şəhərində Xatirə Muzeyinin, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları, həmçinin Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyi fəaliyyətə başlamışdır. Ali Məclis Sədrinin "Culfa rayonunda "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən qalada bərpa işləri aparılmış və burada muzey yaradılmışdır. 2018-ci ilin aprelində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyi istifadəyə verilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müstəqillik illərində muzeylərin fəaliyyətinin təşkili sahəsində təqdirəlayiq işlər görülmüş, muzeylərə gedişlərin sayı artmışdır. Bu da xalqımızın öz tarixi-mədəni irsinə verdiyi dəyərin göstəricisidir. Artıq bu gün muzeylərimiz xalqımızın qəhrəmanlıq tarixini gənclərimizə çatdırır. Ümumtəhsil məktəblərində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin "Tariximizi qoruyaq və yaşadaq!" devizi altında həyata keçirdiyi aksiya gənclərimizin öz tarixi-mədəni irsinə sahiblik istiqamətində atılmış addımdır".*** Gənc nəslin muzeylərdə olması onların qədim və zəngin tariximiz və bu günümüz haqqında dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına, milli dəyərlərə, milli-mənəvi və tarixi irsimizə sevgi ruhunda formalaşmasına mühüm təsir göstərir. Bu baxımdan muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqələrinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən muxtar respublikada məktəb-muzey şəbəkəsi yaradılmış, Azərbaycanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimizlə bağlı distant dərslər keçilmiş, dərslərə hər dəfə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbi qoşulmuşdur. Ali Məclis Sədrinin müvafiq sərəncamlarına əsasən muxtar respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuş tədbirlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsinə imkanlar açmışdır. Muxtar respublikanın muzeylərini fərqləndirən cəhətlərdən biri də burada ziyarətçilərə pulsuz muzey xidmətinin göstərilməsidir.

Naxçıvanda bir sıra muzeylərin internet saytı istifadəyə verilmiş, saytda muzey ekspozisiyalarını internet üzərindən virtual olaraq birbaşa izləmək imkanı yaradılmış, həmçinin muxtar respublikadakı muzeylərin onlayn fəaliyyəti təşkil edilmişdir. Belə ki, mütəmadi olaraq muxtar respublika muzeylərində ekskursiyalar keçirilmiş, bu ekskursiyalar Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarından onlayn formada yayımlanmışdır.

Muxtar respublikada muzey işçilərinin əməyi də dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülür, medallarla təltif edilirlər.

*Bu gün muxtar respublikamızın geniş muzey şəbəkəsinə malik olması qədim diyarda tarixi-mədəni irsimizin qorunub yaşadılması sahəsində görülən işlərin nəticəsidir. Xalqın iftixar mənbəyi olan mədəniyyətin çiçəklənməsi, zənginləşməsi və yenilənməsi prosesi get-gedə daha böyük vüsət alır. Bu yüksəlişi qədim diyarın bütün vətənsevər insanları duyur, görür, alqışlayır və dəstəkləyirlər. Ümummilli lider Heydər Əliyevin də dediyi kimi:* ***"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir".***

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

# Silah və hərbi texnika yay istismar rejiminə keçirilir



Bu gün dövlətimizin diqqət və qayğısı, həmçinin təcrübəli və peşəkar hərbçiləri sayəsində ordumuzun gücü daha da artır. Görülən tədbirlərin nəticəsində dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusunun arsenalı ən müasir silah və döyüş texnikaları ilə zəngindir. Orduda döyüş hazırlığının başlıca şərti yüksək bilik, bacarıq, döyüş ruhudursa, onun tətbiq vasitəsi silah, texnikadır ki, onun da sazlığı vacibdir. Silahın və texnikanın hər zaman döyüşə hazır vəziyyətdə olması üçün isə ona lazımi səviyyədə qulluq göstərilməlidir.

Naxçıvan Qarnizonu Qoşunlarında da silah və texnikanın yay dövründə fasiləsiz və dayanıqlı istismarı və hərbi hissələrin döyüş qabiliyyətinin artırılması məqsədilə aviasiya və hava hücumundan müdafiə vasitələrinə, avtomobil texnikalarına, raket-artilleriya silahlarına, zirehli texnikalara, atıcı silahlara və döyüş sursatlarına planlı şəkildə mövsümi qulluq göstərilir.

Hərbi hissələrdə texnikaların yanacaq-sürtkü materialları və filtrləri dəyişdirilir, elektrik və hidravlik sistemləri, hissə və mexanizmləri planlı şəkildə yoxlanılır. Zirehli texnikaların döyüş və güc bölmələrinə xüsusi qulluq göstərilir, bütün hərəkət hissələri yağlanır, tırtıllar tarımlanır, mühərriklərin yağı dəyişdirilir.

Bütün bu işlər başa çatdıqdan sonra silah və hərbi texnikanın hər bir nümunəsinin təhlili və nəticələrin qiymətləndirilməsi aparılacaq.

**Kənan CƏLİLOV**

# Oxucu məktubları

## Minnətdarlıq

### Dövlətimiz hər zaman öz vətəndaşının yanındadır

*Hörmətli redaksiya!*

Bu məktubu sizə 18 yaşlı nəticəmin köməkliyi ilə göndərirəm. Mənim 99 yaşım var. Dünyanın pis üzünü də görmüşəm, yaxşısını da. İkinci Dünya müharibəsinin həyatımızda qoyduğu izlər bu gün də qalır. Həmin illərdə kəndimizdə nə qədər başıpapaqlı var idisə, müharibəyə getmişdi. Kənddə qalan qocalar, qadınlar, uşaqlar isə çətinliklərə düçar olmuşdu. Qardaşım da, həyat yoldaşım da İkinci Dünya müharibəsinə yollandılar. Sonra yoldaşım yaralı vəziyyətdə qayıtdı, qardaşım isə itkin düşdü. Evlərə gələn qara kağızlar neçə-neçə ocağı söndürdü. Onlar döyüşdə, biz də arxa cəbhədə cəfalar çəksək də, həmin illərdə zəhmətimizin qarşılığını ala bilmirdik. Çətinliklə də olsa, 9 uşaq böyüdüb boya-başa çatdırdım. Özüm orta təhsilli olsam da, balalarıma ali təhsil verməyə çalışdım. İllər keçdi, Vətənimiz müstəqillik qazandı. Zəhmətimizə qiymət verildi. Dövlətimiz güc qazandıqca bizim də maddi vəziyyətimiz düzəldi. Sağlamlığımız da, yaşayışımız da yaxşılaşdı. Hər il 9 May – Qələbə Günü ərəfəsində müharibə veteranlarına, onların həyat yoldaşlarına maddi yardım göstərildi. Bu ənənə yenə də davam edir. Dövlətimiz hər zaman öz vətəndaşlarının qeydinə qalır. Dövlət başçımızın 2022-ci il 19 aprel tarixli Sərəncamı ilə ailəmiz də birdəfəlik maddi yardım aldı. Mən bütün bunlara görə minnətdarlığımı bildirmək və gənclərə dövlət, xalq üçün çəkilən zəhmət heç vaxt itmir demək istəyirəm.

**Dilbər MƏMMƏDOVA**
***Şərur rayonu, İbadulla kənd sakini***

### Teatrsevərləri yeni sənət uğurları ilə sevindirməyə çalışacağıq



*Hörmətli redaksiya!* Bildiyiniz kimi, yaxın günlərdə muxtar respublika rəhbərinin bilavasitə təşəbbüsü və dəstəyi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Şərqin qocaman sənət ocaqlarından biri olan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verildi. Teatrımıza belə yüksək adın verilməsi dövlətimizin mədəniyyətimizə göstərdiyi böyük qayğının göstəricisidir. Bu dəyər biz gənc sənət adamlarının işimizə olan sevgimizi, məsuliyyətimizi daha da artırır. Bu yaradıcı kollektivdə çalışanların əməkhaqlarının artırılması da sənət adamları üçün böyük stimuldur. Bizə bu sevinci yaşadan dövlətimizə minnətdarlığımı bildirirəm.

Mən də Naxçıvan Dövlət Milli Dram Teatrının gənc aktrisası kimi söz verirəm ki, qəlbimdəki ən saf, ən təmiz duyğularla yola çıxaraq, bu sənətdə canımı, ruhumu, sevgimi qoyaraq irəliləyəcəyəm, teatrımızda milli dəyərləri qorumaq və təbliğ etmək, tariximizin şərəfli səhifələrini yaşatmaq missiyasını layiqincə yerinə yetirəcəyəm! Çalışacağıq ki, yeni sənət uğurları ilə dövlətimizin bu etimadını layiqincə doğruldaq, yeni tamaşalarla, bir-birindən maraqlı, rəngarəng rollarla teatrsevərlərimizi, qədirbilən tamaşaçılarımızı sevindirək.

**Mehri NƏBİYEVA**
***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının aktrisası***

### Gözlərimin nuruna qovuşduğum üçün minnətdaram

*Hörmətli redaksiya,* bu məktubu sizə minnətdarlıq hissi ilə ünvanlayıram. Gözlərimiz Günəşin aydınlatdığı bu dünyaya açılan pəncərə, dünyaya gəldiyimiz gündən köçdüyümüz günə kimi bizim yolyoldaşımızdır. Onların köməyi ilə dünyanın gözəlliklərini doyunca seyr edirik. Yaşımız ötdükcə gözümüzün nuru azalır, müxtəlif xəstəliklərə düçar olur.

Mənim 75 yaşım var. Bir neçə ay idi ki, gözlərimdən birində qızartı və şişkinlik, görməmdə get-gedə zəifləmə hiss edirdim. Müalicə üçün həkimə müraciət edəndə öyrəndim ki, gözüm əməliyyat olunmasa, müəyyən bir vaxtdan sonra görmə qabiliyyətimi tamamilə itirə bilərəm. Bu xəbər məni də, yaxınlarımı da çox məyus etsə də, bir neçə gün sonra Bakı şəhərindən yüksəkixtisaslı həkim briqadasının Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə dəvət olunması barədə xəbər aldım. Mən də müayinə və müalicə üçün müraciət edib təmənnasız əməliyyat olundum. Gözüm nuruna qovuşdu əziz həkimlərimizin sayəsində. Xəstəxananın tibb heyətinin peşəkarlığı, qayğısı ilə sağlamlığıma qovuşdum. Bakı şəhərindən gələn həkimlərlə birlikdə çalışan yerli tibb işçilərimizin zəhməti, əməyi də danılmazdır. Yaşım çox olduğuna görə hərəkət edə bilmədiyim üçün Mahir, Vüsalə həkim əməliyyat öncəsi dincəldiyim otağa gəlib müayinəmi etdilər, qan analizimi götürdülər. Tanrı hər birindən razı olsun.

Onu da deyim ki, bu aksiya ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmişdi. Bunun necə böyük savab iş olduğunu dünya işığından ömürlük məhrum olmaq kimi bir təhlükə ilə üz-üzə qalanlar daha yaxşı anlayır. Allah bu savab yiyələrinin gözlərinə nur, qollarına qüvvət versin! Mən müayinəyə və müalicəyə cəlb olunan insanlar adından göstərilən təmənnasız tibbi xidmətə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Zəhra BABAYEVA**
***Naxçıvan şəhəri***

### Yaradılan şərait təhsilimizin nailiyyətlərini efir vasitəsilə daha geniş auditoriyaya təqdim etmək imkanı verir



***Hörmətli redaksiya!***

Bu məktubda yaxın günlərdə yeni internet saytının təqdimatı olan təhsil televiziyası və radiosunda biz müəllimlər və şagirdlərimiz üçün yaradılan şəraitdən və geniş imkanlardan bəhs etmək istədim. Hamınıza məlumdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilib. Bu redaksiyanın tədris proqramlarının, layihələrin, ümumilikdə, təhsil sahəsində baş verən yeniliklərin ictimaiyyətə operativ şəkildə çatdırılmasında mühüm rolu var. Təhsil televiziyası bu gün bütün təhsil prosesinin iştirakçılarını – müəllimləri, şagirdləri, valideynləri bir yerə toplayan platforma kimi çıxış edir. Valideynlər övladlarının nailiyyətlərinin kütləvi informasiya vasitələri ilə yayımlanmasını sevinclə qarşılayırlar.

Təhsil televiziyasında müəllifi və aparıcısı olduğum "Mütaliə vaxtı" verilişi boyunca şagirdlərdə mütaliə bacarıqlarının yaranması və mütaliə sayəsində yazı qabiliyyətlərinin formalaşdırılması mövzusunda müxtəlif müzakirələr aparılır. Proqramda elm və təhsil sahəsində tanınmış maraqlı şəxslərlə, müxtəlif ixtisasdan olan müəllimlərlə kitaba sevgi, oxuya maraq, oxuduğunu qavramaq və anlamaq kimi mövzular ətrafında müzakirələr təşkil olunur.

"Təhsildə bu gün" verilişində mütəmadi yayımlanan xəbərlərdə muxtar respublikada təhsil sahəsində baş verən yeniliklərlə izləyicilər məlumatlandırılır. Beləliklə, biz muxtar respublikanın bütün ümumtəhsil məktəblərində çalışan təcrübəli müəllimləri tanımış oluruq.

"Uğur yolu" verilişində isə bilik və istedadı ilə seçilən şagirdlər ictimaiyyətə tanıdılır. Bu kimi maraqlı verilişlər şagirdlərin asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, onların dünyagörüşlərinin formalaşmasına, əldə etdikləri bilikləri zənginləşdirmələrinə, mütaliəyə maraqlarının artmasına imkan yaradır.

Bu yaxınlarda *kanal35.az* saytının istifadəyə verilməsi, "Kanal 35" televiziyasının çəkiliş studiyasının yenidən qurulması, müasir texnoloji avadanlıqlarla təchiz olunması muxtar respublikamızda təhsilin inkişafı, qazanılan nailiyyətlər, tədris prosesində yeniliklərin tətbiqi ilə bağlı daha geniş auditoriyaya operativ məlumat vermək, təhsildə əyanilik prinsiplərindən istifadə etmək maraqlı verilişlərin hazırlanması baxımından daha geniş imkanlar açıb.

Hörmətli redaksiya! Təhsilə göstərdiyi dövlət qayğısına görə həmkarlarım adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

**Asudə MƏMMƏDOVA**
***Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin direktoru***

### Elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən ali təhsil ocağı

***Hörmətli redaksiya!***

Mən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Stomatologiya ixtisasında təhsil alıram. Qeyd etmək istəyirəm ki, universitetin təhsil şəraiti çox gözəldir. Bu isə muxtar respublika rəhbərinin ali təhsil ocağına göstərmiş olduğu diqqət və qayğıdan xəbər verir. Universitetimizin hər cür şəraitlə təchiz edilmiş tələbə evi, zəngin elektron kitabxanası, xəstəxanası bu ali təhsil ocağına olan marağı getdikcə artırmaqdadır. Sevindirici haldır ki, bu universitet Azərbaycanda ali təhsil müəssisələri arasında yeganə modern üslubda kampusa sahibdir. Deyərdim ki, ilk olaraq Texnoparkın burada yaradılması prosesi, müasir laboratoriya və auditoriyalarla təchiz edilməsi bizim simamızda olan əcnəbi tələbələrin bu prestijli ali təhsil ocağına maraq göstərmələri üçün əsas səbəblərdir. Fikrimi konkret olaraq belə ifadə edərdim: Naxçıvan Dövlət Universiteti elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən mötəbər ali məktəbdir.

Naxçıvanda gənclərin, o cümlədən xarici tələbələrin təhsil alması ilə yanaşı, onların yaşaması və işləməsi üçün də hərtərəfli şərait yaradılıb. Hər il biz əcnəbi tələbələrə ərzaq paylarının ayrılması, Ramazan bayramı ilə əlaqədar iftar paylarının verilməsi, maddi yardım almaq üçün elektron kartlar təqdim edilməsi muxtar respublika rəhbərinin tələbələrə göstərdiyi diqqətin daha bir ifadəsidir. Bizə göstərilən bu qayğıya görə ali təhsil ocağının tələbə-gəncləri adından dərin minnətdarlığımı bildirirəm.

**Əmrə ASLANTATAR**
***Naxçıvan Dövlət Universitetinin Stomatologiya ixtisasının III kurs tələbəsi***

### Rayonlarda ilk dəfə "Kətə" festivalı keçirilməsi təqdirəlayiq haldır

***Hörmətli redaksiya!*** Naxçıvanda ailə təsərrüfatçılarına hər cür köməklik göstərilir. Görülən işlərin nəticəsidir ki, belə təsərrüfatların sayı ildən-ilə artır. Diyarımızda həyata keçirilən bir çox tədbirlər ailə təsərrüfatlarına məhsullarını daha yaxşı tanıtmağa və ailə büdcəsini genişləndirməyə imkan verir. Muxtar respublikada müntəzəm olaraq təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkaları, sərgi-satışlar və müxtəlif səpkili festivallar da bu işdə böyük rol oynayır. Naxçıvan şəhərində keçirilən ənənəvi "Kətə" festivalı muxtar diyarımızın zəngin mətbəxini, süfrə ənənələrini özündə əks etdirməsi, kütləvi maraq yaratması baxımından mühüm əhəmiyyət daşıyır. Bu il ilk dəfə muxtar respublikamızın rayonlarında da belə festivalların keçirilməsi xüsusi qeyd olunmalıdır.



Rayonumuzda da belə bir festivalın təşkili biz sakinləri çox sevindirdi. Naxçıvan şəhəri ilə Sədərək rayonu arasında 80 kilometr məsafə var. Ona görə də Sədərək və məsafəcə uzaq olan rayonlarda yaşayan bir çox insanın Naxçıvanda keçirilən "Kətə" festivalında iştirak etmək imkanı olmur. Bu baxımdan bu festivalın rayon mərkəzlərində də keçirilməsi təqdirəlayiq haldır. Biz də Heydərabad qəsəbəsində təşkil edilmiş festivalda məmnuniyyətlə iştirak etdik. Mənim kimi ahıl adamlar üçün bu, böyük diqqətdir. Onu da deyim ki, bu gün hər bir sədərəkli rayonu dövrəyə alan uca dağların başında dayanıb Vətəni qoruyan igid oğullarımızın sayəsində evində rahat yatır, əkinində, tarlasında qorxmadan çalışır. Övladlarımız düşmənin beş metrliyində yerləşən məktəblərdə təhsil alır. Sözsüz ki, qəsəbənin mərkəzi meydanında təşkil edilən bu festival düşmən postlarından da aydın şəkildə görünürdü. 90-cı illərin əvvəllərində layiqli cavabını alan, Vətən müharibəsində məhv edilən xain, azğın düşmənə qoy firavan həyatımız, bolluq-bərəkət içində keçən gün-güzəranımız da bir başqa cür gözdağı olsun. Rayon sakinləri adından yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Dilbər RZAYEVA**
***Sədərək rayonunun Qaraağac kənd sakini***

### *İtmişdir*

Naxçıvan şəhər Əliabad qəsəbəsi döngə 17, ev 40-da yaşamış Rzayev Fəxrəddin Hüseyn oğlunun adına verilmiş 19.05.2016-cı il tarixli MH-0048339 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Əlizadə Rəmzi Novruzəli oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Cəfərzadə Anar Sahib oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 427